

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 206 (23.848)

5 noyabr 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə noyabrın 4-də "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumu işə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində çıxış edib.

Qeyd edək ki, sayca 8-ci olan və noyabrın 6-dək davam edəcək Bakı Forumunda qlobal əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi məqsədilə dünyanın 40-dan çox ölkəsindən ali və yüksək səviyyəli nümayəndələr, sabiq dövlət və hökumət başçıları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, eləcə də digər nüfuzlu qonaqlar iştirak edirlər. Hibrid formatda təşkil edilən tədbirə 300-ə yaxın qonaq canlı və onlayn qaydada qoşulacaq.

* * *

Prezident İlham Əliyev həmin gün İsrailin sabiq xarici işlər naziri Tzipi Livnini qəbul edib. Görüşdə "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumunun önəminə toxunulub, Prezident İlham Əliyevin Forumun açılış mərasimindəki çıxışının böyük maraqla qarşılandığı bildirilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Ukraynanın sabiq Prezidenti Viktor Yuşşenkonu qəbul edib.

## Sənaye məhsullarının həcmi öz üstünlüyünü qoruyur



***Sənaye istehsalı bu gün iqtisadiyyatın əsas aparıcı sektoru sayılır. Çünki bu cür istehsal sahələri iqtisadiyyatın davamlılığında mühüm rol oynayır və istehsal vərdişlərinin qorunmasına xidmət edir. Buna görədir ki, inkişaf etmiş ölkələrin əksəriyyətində iqtisadiyyatın inkişafı daxili istehsalla birbaşa əlaqəlidir. Ölkə istehsalçıdırsa, deməli, müəyyən bir kütlənin tələbatını ödəyir. Tələbatını ödəyirsə, deməli, bunun qarşılığını alır və bu mənfəətindən iqtisadiyyata öz töhfəsini verir.***





Sənayenin inkişafı xammala əsaslandığından bu xammaldan istifadə imkanları, o cümlədən emalı, daşınması, yeni məhsulun istehsalında yararlılıq faizi əsas amillərdən hesab olunur. Muxtar respublikanın ötən əsrin 90-cı illərindən blokada vəziyyətinə salınması sənaye infrastrukturunun yaradılmasında çətinliklər törətsə də, qarşıya qoyulmuş məqsədyönlü tədbirlər nəticəsində bu sahənin inkişafı təmin olunub. Təsadüfi deyil ki, son illərdə muxtar respublikada çoxsaylı yeni müəssisələr istifadəyə verilib, mövcud müəssisələrin fəaliyyətlərinin bərpası və yenidən qurulması diqqət mərkəzində saxlanılıb. Görülmüş işlərin nəticəsidir ki, bu gün muxtar respublikada çörəkbişirmə, qənnadı, mineral su, meyvə şirələri, spirtli içkilər, siqaret, pivə, plastik qapı və pəncərə, plastik su boruları, hörgü və döşəmə üçün kərpic, üzlük daş, gips, gips lövhələr, əhəng, məsaməli beton, karbon qazı, metaləritmə və onlarla digər istehsal sahələri yaradılıb. Son illərdə sənaye sahələrinə böyük investisiyaların qoyulduğu müəssisələrin fəaliyyəti nəticəsində məhsul istehsalının həcmi artıb. Bu isə, öz növbəsində, muxtar respublikanın ümumi daxili məhsul istehsalında sənaye məhsullarının həcmini dəfələrlə yüksəldib. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-sentyabr aylarında istehsal olunan sənaye məhsulları ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz artıb. Əvvəlki dövrlərdə olduğu kimi, 2021-ci ilin ilk 9 ayında da sənaye məhsullarının həcmi ümumi daxili məhsul istehsalında ön yerdə dayanır. Belə ki, bəhs edilən dövrdə ümumi daxili məhsul istehsalı 2 milyard 151 milyon 583 min manat olub ki, bunun da 27,7 faizini sənaye məhsulları təşkil edir.

Hazırkı dövrdə mövcud sənaye imkanlarından maksimum yararlanmaq, dinamik məhsul istehsalında dayanıqlılığı təmin etmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması qarşısında duran əsas vəzifələrdəndir. Buna görə də həyata keçirilən iqtisadi tədbirlər sənayeləşmə prosesini sürətləndirməklə yanaşı, rəqabətədavamlı və ixracyönümlü məhsullar istehsalını zərurətə çevirir. Yeni dövrün bu cür tələblərinə uyğun olaraq hazırda rəqabətqabiliyyətli məhsul istehsal edən yeni müəssisələrin yaradılmasına lazımi dövlət dəstəyi göstərilir. Statistikaya görə, 2021-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada sahibkarlara 25 milyon 69 min 800 manat kredit verilib. Verilmiş kreditlərin 8 milyon 580 min manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 16 milyon 489 min 800 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunub.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikada 384 növdə məhsul istehsal olunur. Bu məhsulların 127-si ərzaq, 257-si qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilib. Bunu da qeyd edək ki, həyata keçirilən tədbirlər məşğulluq məsələlərinin həll olunmasına da öz müsbət təsirini göstərib. Bu ilin yanvar-sentyabr aylarında muxtar respublika üzrə 377 yeni iş yerinin yaradılması da bunu bir daha təsdiq edir.

Rəqabətədavamlı məhsul istehsal etmək bu gün muxtar respublika sahibkarlarının qarşısında qoyulmuş mühüm tapşırıqlardan biridir. Sənaye məhsulları istehsalçıları da yaradılmış şərait nəticəsində qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlməyə çalışırlar.

✍ Səbuhi HƏSƏNOV

## Növbəti aktivlər təqdim olunub



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" sosial qayğıya ehtiyacı olan ailələrin, habelə sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluğunun təmin edilməsi istiqamətində sosial layihələrin icrasına əlverişli zəmin yaradıb.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən oktyabr ayında həyata keçirilmiş özünüməşğulluq tədbirləri çərçivəsində muxtar respublika üzrə 27 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib və 14 nəfərin hər birinə 2 baş iribuynuzlu, 6 nəfərin hər birinə 20 baş xırdabuynuzlu, 3 nəfərə miniyerşumlayan aqreqat, 1 nəfərə unlu və qənnadı məmulatlarının hazırlanması üçün avadanlıq və ləvazimatlar, 1 nəfərə bərbər avadanlıqları, 1 nəfərə südsağan aqreqat, 1 nəfərə isə odunkəsən, otbiçən aparat və ehtiyat hissələri verilib. Özünüməşğulluğu təmin edilmiş şəxslərdən 17 nəfərini sağlamlıq imkanları məhdud şəxs, 2 nəfərini şəhid ailəsi, 1 nəfərini cəzaçəkmə müəssisəsindən azad olunan şəxs, 2 nəfərini isə ailəsində qazi olan şəxslər təşkil edib.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan şəxslərə göstərilən dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Tədbirdə çıxış edən nazirliyin Dövlət Məşğulluq Agentliyinin direktoru Heydər Quliyev və Naxçıvan Şəhər Məşğulluq Mərkəzinin direktoru Elmar Eyvazov ötən dövr ərzində proqramın icrası istiqamətində görülən işlərdən danışıb, əldə olunan nəticələrdən bəhs ediblər. Daha sonra aktiv verilmiş ailə təmsilçilərinə müvafiq sənədlər təqdim olunub.

Qeyd edək ki, bu mərhələdə təsərrüfatını nümunəvi şəkildə inkişaf etdirdiyinə görə Babək rayonunun Hacıvar kənd sakini Gülsüm Salmanova həvəsləndirmə tədbirlərinə cəlb edilib və bu məqsədlə ona otdoğrayan aqreqat verilib. Gülsüm Salmanova minnətdarlıq edərək bildirib ki, artıq 3 ilə yaxındır, proqrama cəlb olunub və ötən müddət ərzində təsərrüfatında ciddi artımlar qeydə alınıb.

Tədbirdə iştirak edən digər vətəndaşlar da göstərilən diqqət və qayğıya görə minnətdarlıq edib, verilmiş aktivlərdən səmərəli istifadə etməyə çalışacaqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Naxçıvanın yerli tütün məhsulları beynəlxalq sərgidə rəğbətlə qarşılanır



"Cahan Tabak Beynəlxalq" Məhdud Məsuliyyətli Cəmiyyəti ixrac potensialını gücləndirmək, ölkəyə xarici valyuta axınını artırmaq və yerli iqtisadiyyata dəstək məqsədilə 26-27 oktyabr tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində təşkil edilən 2021 WTME Beynəlxalq tütün sərgisində iştirak edib. Əmirliyin 21 istehsalçı şirkətinin iştirak etdiyi sərgidə "Cahan Tabak" Beynəlxalq Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi 4 adda 20-dən çox çeşiddə tütün məhsulları nümayiş olunaraq "Made in Azerbaijan" brendi altında Azərbaycanı təmsil edib.

Sərgidə "Cahan Tabak Beynəlxalq" stendi maraqla qarşılanaraq ixracatçıların diqqət mərkəzində olub. "Made in Azerbaijan" markalı məhsullarını dünya bazarında təqdim və təbliğ etməyi ənənə halına çevirən cəmiyyət ölkə iqtisadiyyatına öz töhfəsini vermək üçün çalışır.

Qeyd edək ki, 26 illik fasilədən sonra Naxçıvan Muxtar Respublikasında tütünçülük ənənələrinin yaşadılması həyata keçirilən uğurlu islahatların nəticəsidir. Artıq bu gün yerli xammala əsaslanan tütünçülük məhsulları dünyanın məşhur markaları ilə rəqabət aparır. Muxtar respublikada istehsal olunan tütün məhsullarının belə beynəlxalq sərgilərə çıxarılması və rəğbətlə qarşılanması tütünçülüyün yüksək inkişaf səviyyəsindən və iqtisadiyyatımıza müsbət təsirindən xəbər verir.

***"Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının mətbuat xidməti***

# Bu gün o gündür...

## Polad iradədən və milli birlikdən doğan Zəfər Günüdür



*Çox vaxt deyirlər ki, xoşbəxtlik an məsələsidir, o, heç vaxt əbədi olmur. Xoşbəxtliyin an məsələsi olduğuna bir vaxtlar mən də inanmışdım. Ancaq bir il bundan əvvələ – zəfər yürüşünə qədər, daha doğrusu. Xoşbəxtliyin əbədi olduğuna isə cəmi 44 gündə – Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman ordumuz Vətən müharibəsindəki parlaq qələbə ilə xalqımızı əbədi xoşbəxtliyə qovuşduranda şahid oldum. Çünki torpaqlarımızı işğaldan qurtaranlar, xoşbəxtlik gətirənlər, əslində, xalqın ruhunu, mənəvi dünyasını da əsarətdən xilas etdilər. Onlar 30 il öncə ayaqyalın-başıaçıq öz torpaqlarından qovulan, hər şeyləri əlindən alınanların qisasını aldılar. Onlar hicranla vüsal arasındakı o dərin uçurumu bir göz qırpımında keçərək 30 ilin sürgün və həsrətinə son qoydular. Xalqın həsrətini bitirib ona qalibiyyət bəxş etdilər. Elə bir qalibiyyət, elə bir zəfər ki bundan sonra Azərbaycanın gələcək inkişafı məhz həmin tarix üzərində bərqərar olacaq. Bəli, Zəfər tarixi üzərində...*

Çünki biz bu zəfərlə 30 illik həsrətə, 2 əsrlik münaqişəyə son qoyduq. Biz bu zəfərlə 30 il yol gözləyən xarıbülbülün həsrətinə son qoyduq. Biz bu zəfərlə düşmən ayağı altında əzilməkdən azad olan Cıdır düzünə yeni həyat verdik, Şuşanın dağlarının başından dumanı birdəfəlik götürdük. Bu zəfərlə Pənahəli xanın, Xurşudbanu Natəvanın ruhlarını öz yadigarına, göz bəbəyi Şuşaya qaytardıq. Bu zəfərlə "o gün olsun, Qarabağı düşmən tapdağından azad edək" fikrini reallığa çevirdik. Bəli, bu gün bütün şəhidlərimizin məzarda rahat uyuduğu ruhlarının, sözün əsl mənasında, şad olduğu gündür. Bu gün ulu öndərin vəsiyyətinin yerinə yetirildiyi gündür. Bu gün Xocalı soyqırımı qurbanlarının – Xocalıda şəhid olan uşaqlı-böyüklü bütün şəhidlərimizin bizə öz qanlarını, canlarını, haqlarını halal etdiyi gündür. Bu gün artıq torpaqlarımızın 20 faizini işğal altında olmadığını qürurla, inamla dediyimiz gündür. Bu gün günahsız körpələrin intiqamının alındığı gündür. Bu gün gözündən yaş axan şəhid anasının, çiynində həyat yoldaşının tabutunu daşıyan şəhid xanımının, qucağında atasının şəklini daşıyan şəhid övladının öz haqlarını Vətənə – bizə halal etdiyi, şəhid atasının başını dik tutduğu gündür. Bu gün 30 il öncə məcburi köçkün adını qazanmış soydaşlarımıza Qarabağın qucaq açdığı gündür. Bu gün illər öncə BMT tərəfindən qəbul edilən 4 qətnamənin qəhrəman ordumuz tərəfindən icra edildiyi gündür. Bu gün xalqımızın dəmir yumruğunu, polad iradəsini, milli birliyini, Zəfərini bütün dünyanın gördüyü gündür. Bu gün bizim günümüzdür. Bu gün Qarabağın günüdür. Bu gün illərdir, sənədlər, danışıq masaları üzərində qalan haqq-ədalətin bərqərar olduğu gündür. Bu gün igid oğullarımızın öz qanlarıyla məhz bu günü tarixə qızıl hərflərlə yazdığı gündür.

Bəli, bu gün o gündür. Həsrətlə gözlədiyimiz həmin o gün. 44 gün çəkdi Zəfər müharibəmiz. Bir yumruq olduq – dəmir bir yumruq. Bir birlik olduq, elə bir birlik ki, heç kim onu parçalaya bilmədi. Xalqımız bir oldu. Ali Baş Komandanın "dəmir yumruğ"unda cəm oldu, qəhrəman oldu. O qəhrəman ki qanı ilə, canı ilə tarix yazdı. O qəhrəman ki oğlunun tabutunun büründüyü bayrağı qucaqlayan, ürəyini dərd-qəm parçalayan şəhid anasıdır. O qəhrəman ki başını dik tutaraq "Mən Vətənimə bir oğul yetişdirmişəm. Nə böyük şərəfdir, İlahi!" – deyən şəhid atasıdır. O qəhrəman ki şəhid yoldaşının tabutunu öz çiyinlərində daşıyan şəhid xanımıdır. O qəhrəman ki şəhadətin nə olduğunu hələ tam dərk etməsə də, öz şəhid atasının tabutunun büründüyü bayrağı öpəndə gözündən qürur hissi yağan körpə şəhid övladıdır. O qəhrəman ki ağlaya-ağlaya öz körpəsinin cansız bədəninə sarılan çarəsiz, amma mərd atadır. Bəli, bu qəhrəman həm də Gəncədir, Bərdədir, Tərtərdir, Ağdamdır, Naxçıvandır! Bu qəhrəman Mədinədir, Xədicədir, Nigardır, Zəhradır və daha neçə belə günahsız körpədir. Bu qəhrəman ordumuza böyük məbləğdə yardım göstərənlərdən tutmuş, təqaüdünü orduya yardım fonduna keçirən ağsaqqal, xaricdə yaşayan azərbaycanlılar, ordumuza maddi və mənəvi dəstək olan qardaş ölkələrin vətəndaşları, hətta sosial şəbəkələrdə Azərbaycan xalqının haqq işinə sözü, yazısı ilə dəstək verən, mənfur düşmənə qarşı vuruşmaqda əzmkar, qəhrəman olmağı, ümumi amal və mənafe naminə öz şəxsi mənafeyini, canını, malını qurban verməyi bacaran, eyni zamanda ölkəmizin azadlığı, ərazi bütövlüyü naminə inciklikləri, siyasi ambisiyaları bir kənara qoyaraq dəmir bir yumruq olaraq dövlət başçısının ətrafında birləşməyi bacaran Azərbaycan xalqıdır. Bəli, bu qəhrəman Azərbaycan xalqı və ən nəhayət, bu xalqı – bu tarix yazan qəhrəmanları dəmir bir yumruq halında birləşdirən vahid bir amal – Vətən sevgisidir.



Biz bu Vətən sevgisi ilə yalnız tarix yazmadıq, dünya ölkələri üçün arxamızca öyrəniləcək çox izlər buraxdıq. Milli ordumuzun tətbiq etdiyi müharibə strategiyası müasir dövr hərb tarixinə qabaqcıl nümunə kimi həkk olundu. Bu müharibədə ermənilərin özləri haqqında yaratdığı "məğlubedilməzlik" mifi darmadağın oldu. Qısa zamanda düşmən ordusunun yüzlərlə texnikası, minlərlə canlı qüvvəsinin məhv edilməsi hərbçilərimizin peşəkarlığı və cəsurluğundan xəbər verdi. Azərbaycan xalqı öz liderinin – Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Qazanılan zəfərlə ərazi bütövlüyümüz təmin edildi, ordumuzun gücü və imkanları bütün dünyaya nümayiş olundu, milli birliyimiz daha da möhkəmləndi, BMT-nin Dağlıq Qarabağla əlaqədar qətnamələrinin həyata keçirilməsi təmin edilmiş oldu, yalançı erməni uydurmalarını ifşa etməklə, bəşəriyyətə haqqın, ədalətin nə olduğunu sübut etdik. 44 gündə müzəffər Azərbaycan Ordusu dünyaya bir daha sübut etdi ki, döyüş meydanında zəfəri tanklarla, toplarla deyil, ağılla, zəkayla, Vətən, xalq birliyi ilə qazanmaq olar. Prezident, Ali Baş Komandan cənab İlham Əliyev xalqa müraciətində dediyi kimi: ***"Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq".***

Özü də neçə qərinələr, əsrlər ötsə belə...

Bəli, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı hərb tariximizə daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Prezident cənab İlham Əliyevin Vətən müharibəsi zamanı təkbaşına apardığı siyasi-ideoloji mübarizə isə ordumuzu qələbəyə daha da ruhlandırdı. Ali Baş Komandan şiddətli döyüşlərin getdiyi ən çətin günlərdə nüfuzlu dünya informasiya agentliklərinə verdiyi dərin məzmunlu müsahibələrlə beynəlxalq ictimai rəydə də müharibəni qazandı. Dünya ölkələri Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin timsalında yüksək hazırlığa, geniş dünyagörüşünə malik olan fərqli bir liderlə qarşılaşdı. Hərtərəfli hazırlıq səviyyəsi, yüksək intellektual qabiliyyəti, dönməz iradəsi və qətiyyəti ilə ölkə rəhbəri bütün təzyiqlərə cəsarətlə sinə gərdi, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Prezident cənab İlham Əliyev Vətən müharibəsində qazandığı böyük zəfərlə çoxəsrlik Azərbaycan tarixinə müasir dövrün Müzəffər Ali Baş Komandanı kimi daxil oldu.

*Biz həm qalib xalq kimi, həm Azərbaycan tarixində yeni mərhələnin başlanmasının şahidi kimi xoşbəxt insanlarıq. Həm də ona görə xoşbəxt insanlarıq ki, yeni tariximizi dərin zəkası və qüvvətli yumruğu ilə yazan, xalqımızın iradəsini savaş və siyasət meydanında gerçəkləşdirən və tarixi yaddaşımıza həkk edən xalqın maraqlarını bütün dəyərlərdən üstün tutan, ölkənin bütün potensialını Vətən naminə səfərbər edən, bizi dağlı-aranlı Qarabağa tam sahibləndirən əbədi Lideri var.*

**Arzu ABDULLAYEV**
***Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk partiya təşkilatının sədri***

*Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin universitetin Pedaqoji fakültəsi ilə birgə Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi ixtisası tələbələrinin növbəti hamilik tədbiri keçirilib.*

## Ali təhsil ocağında növbəti hamilik tədbiri keçirilib



Tədbirdə giriş sözü ilə çıxış edən universitetin rektoru, dosent Elbrus İsayev universitetdə vətənpərvərlik tərbiyəsinin təşkilindən, Zəfər Günümüzün bir ili ərəfəsində keçirilən görüşün tələbələrin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsindəki mühüm rolundan danışıb.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, polkovnik Mirzə Cəlilov tədbir iştirakçılarını Vətən müharibəsində qazandığımız tarixi qələbə və Dövlət Bayrağı Günü münasibətilə təbrik edib. Polkovnik vurğulayıb ki, tələbələr universitetlə birgə təsdiqlənmiş Tədbirlər planına uyğun olaraq Əlahiddə Ümumqoşun Ordunun Təlim Tədris Mərkəzinin tədris bazasından istifadə edərək nəzəri və praktik məşğələlər keçəcək, hərbi texnika və silahlarla yaxından tanış olacaq, silahlardan praktik atışlar həyata keçirmək vərdişlərinə yiyələnəcəklər.

Xidmətin Həqiqi hərbi xidmətə çağırış və çağırışqabağı hazırlıq şöbəsinin rəisi, mayor Vüsal Əliyev təhsil müəssisələrində çağırışaqədərki hazırlıq rəhbərlərinin vəzifələrindən, Azərbaycan Silahlı Qüvvələrinin hərbi təhsil sistemindən danışıb.

Vətən müharibəsi qazisi baş leytenant Hüseyn Həsənov keçdiyi döyüş yolundan danışıb. "Aldığımız medalları, dövlət təltiflərini şərəflə daşıyırıq", – deyən qazi öz döyüş yoldaşları adından göstərilən diqqət və qayğıya görə minnətdarlıq edib.

Zəfər gününün birinci ildönümü ilə əlaqədar torpaqlarımızın işğaldan azad edilməsində, tarixi qələbənin qazanılmasında göstərdiyi şücaət və qəhrəmanlığa görə baş leytenant Hüseyn Həsənov, Əyyub Sadıxov, gənclərə hərbi-vətənpərvərlik ruhunun aşılanmasındakı fəaliyyətlərinə görə Pedaqoji fakültənin dekanı Vəli Əliyev, Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrasının müdiri Oktay Rzayev təşəkkürnamə, hərbi-vətənpərvərlik tədbirlərində fərqlənən bir neçə tələbə fəxri fərmanla təltif edilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Şanlı zəfər tarixi

*Naxçıvan Qarnizonu tam orta məktəbində qan yaddaşımızla bağlı tədbirlərin keçirilməsinə xüsusi diqqət yetirilir.*



Müzəffər Azərbaycan Ordusunun erməni vandalizmi üzərində çaldığı parlaq zəfərdən bir il ötür. Bu məqsədlə Naxçıvan Qarnizonu Təlim Tədris Mərkəzində "Şanlı zəfər tarixi" mövzusunda tədbir keçirilib.

Tədbirin keçirilməsində əsas məqsəd İkinci Qarabağ savaşında xüsusi qəhrəmanlıqlar göstərmiş Azərbaycan Ordusunun döyüş təcrübəsindən fraqmentlər nümayiş etdirməklə, müzəffər Ordumuzun dünyanı döyüş təcrübəsi, Vətənə, torpağa, yurda, soykökünə bağlılığı ilə heyrətə gətirən qəhrəmanlarını tanıtmaq, onların parlaq zəfər yolu haqqında şagirdləri məlumatlandırmaq, onlarda vətənpərvərlik tərbiyəsini, vətənpərvərlik ruhunu inkişaf etdirməkdən ibarətdir.

Tədbirdə İkinci Qarabağ müharibəsinin iştirakçıları baş leytenant Fariz Babayev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları, əsgərlər – Uğur Dünyamalıyev, Afiyəddin Cəfərov və Tağı Həsənov iştirak ediblər.

Baş leytenant Fariz Babayev çıxış edərək şahidi olduğu döyüş səhnələri ilə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşüb. Milli Qəhrəman Yusif Mirzəyevin, Aprel döyüşləri və İkinci Qarabağ müharibəsi şəhidlərindən bir neçəsinin ailə üzvləri tədbirdə iştirak ediblər.

Tədbirdə İkinci Qarabağ savaşının real müharibə döyüşlərindən, Zəfər paradından, Hərbi Qənimətlər Parkından, "Sarsılmaz qardaşlıq-2021" təlimlərindən, "Xarıbülbül" festivalından hissələr şagirdlərə videoçarx şəklində göstərilib.

Məktəbin VIII-IX-X-XI sinif şagirdlərinin şəhidlər haqqında hazırladıqları kompozisiya nümayiş etdirilib, vətənpərvərlik haqqında şeir və mahnılar ifa edilib.

**Ulduz EYVAZOVA**
***Naxçıvan Qarnizonu tam orta məktəbinin tarix müəllimi***

## Təlim davam edir



Naxçıvan Qarnizonu Qoşunlarında komanda-qərargah təlimi plana uyğun davam edir.

Təlimin planına əsasən səhra və stasionar döyüşü idarəetmə məntəqələrində əməliyyatlar planlaşdırılır, müxtəlif fəaliyyət tərzləri üzrə hesabatlar aparılır, ərazidə taktiki və xüsusi təyinatlı qrupların tapşırıqları dəqiqləşdirilir, maket üzərində qarşılıqlı əlaqənin və hərtərəfli təminatın təşkili üzrə plan və hesabatlar hazırlanır.

Qəbul edilmiş qərarın hərtərəfli təminatının təşkili üzrə qərargahlar tərəfindən plan və əlavələrin xəritəyə işlənilməsi, aidiyyəti üzrə əmr və sərəncamların müasir texniki vasitələr üzərindən bölmələrə göndərilməsi məşq edilir.

Təlimin növbəti mərhələsi kompüter üzərində və praktik fəaliyyətlərin icrası ilə davam edəcək.

**Nəriman NƏCƏFOV**

# Təhlükəli arıqlama dərmanları: çarə, yoxsa bəla?

***Bəzi insanlar ömrüboyu, kimi bilmədən, kimi də bilərək, şüurlu şəkildə öz əlilə ömrünə balta çalır. Həm də bunu adi hal, həyat norması kimi qəbul edir, iradəsinin zəifliyindən doğan həyat tərzinə, seçdiyi yola, pis vərdişlərə haqq qazandırmağa çalışır. Lakin qarşıda onu nələrin gözlədiyindən xəbərsiz olur. Baxmayaraq ki, həkimlərimiz dəfələrlə çağırışlar edirlər, bəzi preparatlardan kənar olmağı məsləhət görürlər, lakin buna əməl etməyənlər düşdüyü vəziyyətlə həkimə müraciət edirlər. Bu an isə onlar üçün artıq çox gec olur.***

Müasir dövrümüzdə ən böyük bəlalardan biri də bəzi insanların, xüsusilə də qadınların sonunu düşünmədən arıqlamaq üçün qeyri-sağlam yollara əl atmasıdır. “Təki arıqlayım”,– deyərək təhlükəli arıqlama dərmanları qəbul etməklə sağlamlıqlarını risk altına qoyub dərdinə çarə axtaranlar bəla tapırlar. Bir çox hallarda piylənmədən əziyyət çəkənlər, deformasiyaya uğramış bədən quruluşuna sahib olanlar, eləcə də ideal bədənə malik olmaq istəyənlər həkimə müraciət etmək, idmanla məşğul olmaq əvəzinə, haqqında elə də ətraflı məlumat əldə etmədikləri, ziyanları haqda xəbərdar olmadıqları dərman preparatlarına üstünlük verirlər. Arıqlamaq istəyi onları reseptsiz, həkim məsləhəti olmadan dərman qəbul etməyə sövq edir. Ta ki problem yaranana qədər.

Hər bir insanın öz bədən quruluşu var. Tutaq ki, 40 yaşlı bir qadın özünü gənc göstərmək üçün bu cür vasitələrə əl atır. Bu, yolverilən deyil. Belə dərmanlar isə ən yaxşı halda, sadəcə kömək etmir, aludəçiliyə yaşıl işıq yandırır, ən pis halda isə insan həyatı təhlükə ilə üz-üzə qalır, xərçəngə səbəb olur, ölüm kabusuna çevrilir.

Arıqlama dərmanları çarədirmi? Onların əksəriyyətinin üzərində Azərbaycan dilində yox, digər dillərdə yazılar var, amma məzmuna aid şərh yoxdur. Bir neçə il bundan əvvəl Avropada “Payuytsi” çayında və həbində sibutramin aşkar edilərək təhlükəli hesab olunub. Buna görə həmin dərmanın satışı qadağan edilib. Həmçinin həkimlər belə dərmanların infarkt və insult xəstəliklərinin inkişafına kömək etdiyini aşkarlayıblar. Bir sıra hallarda isə dərmanlar vasitəsilə arıqlayanların fiziki qabiliyyətlərinin çox ciddi şəkildə pozulması müşahidə olunur. Xüsusən internet vasitəsilə satılan və reklam olunan dərmanların alıcılarının kifayət qədər olması problemi daha da qəlizləşdirir. Bəzi saytlarda və pərakəndə satış mağazalarında satılan dərmanların əksəriyyətinin “təbii”, “100 faiz bitki mənşəli” olduğu iddia edilsə də, bu tip məhsulların göstərilməyən zərərli maddələr daşıdığı məlumdur. Həmin ünvanlarda “Çəkinizi bizə etibar edin”, “Arıqlamaq istəyənlərin nəzərinə”, “İlk kapsuldan effekt”, “Arıqlamaq artıq asanlaşdı” kimi elanlara istənilən qədər rast gəlmək olur.

Bəs mütəxəssislər nə deyir? Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim dietoloqu Sona Cəlilova bildirir ki, arıqlamaq üçün istifadə edilən həmin dərmanların heç bir tibbi əsası yoxdur. Çünki təbabətdə arıqlama dərmanı deyilən bir anlayış yoxdur. Arıqlamaq düzgün şəkildə, sağlamlığa zərər vurulmadan, dietoloqun köməyi ilə ola bilər.

“Sağlam şəkildə, mütəxəssislərin köməyi ilə yavaş-yavaş arıqlamaq çətin olduqda sehrli bir çubuq axtarırıq. Bu zaman arıqlama dərmanlarına müraciət olunur”, – deyən həkim onu da əlavə edir ki, bu dərmanlar ya mədə-bağırsaq sistemini, ya da iştahı pozur. Deməli, lazımlı qidalar orqanizmə daxil olmayıb. Bundan sonra orqanizmin immuniteti aşağı düşür, gərginlik baş verir. Bəzi “arıqlama dərmanları” isə ishal yaradır. Bağırsaqların fəaliyyəti pozulur. Orqanizm üçün zəruri qida bədənə sorulmadan xaric olunur. İşlədicilərin, mədənin, bağırsaqların işi, orqanizmin balansı pozulur. Orqanizmə normal vitaminlər daxil olmayanda isə digər orqanlarda da problemlər yaranır. Daha sonra həmin şəxs o dərmanı qəbul etmək istəməsə də, bədən tələb edir. Arıqlamaq üçün çaylar da bura aiddir. Bunun üçün hökmən həkim məsləhəti olmalıdır. Müxtəlif çaylarla arıqlayıb sonra dəfələrlə artıq çəki alan insanları müşahidə etmişəm. Çünki sağlam üsullarla deyil, yanlış üsulla çəki atanda hüceyrələr ac olur, adi su içəndə də kökəlmə baş verir.

Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserinin baş həkimi Rəşadət Nabatov bildirir ki, muxtar respublikada belə hallara rast gəlinməsə də, yenə də maarifləndirmə vacibdir. Məsələ ondadır ki, arıqlayanlar daim özünə nəzarət etməyə, yemək



istəyini boğmağa, üstünlük verdiyi yeməkləri dəyişməyə, qəbul etdiyi qidanın həcmini hesablamağa məcburdurlar. Pəhriz pozulanda isə vəziyyət daha da pisləşir. Bu halda problemlərin sırasına psixoloji əzablar da əlavə olunur. Arıqlama dərmanlarının uzun müddət istifadəsi bəzən aludəçiliyə çevrilir, vərdiş yaranır və narkomaniyaya gedən yolda yaşıl işıq yanır. Necə ki, xərçəng, vərəm, digər ağır xəstəliklər arıqladır, bu dərmanlar da arıqladır və sonda öldürür. Lakin bu arıqlamaq o arıqlamaqdan deyil. Elə ki arıqlama başladı, demək ölümə yaxınlaşırsan. Belə ağılsız metodla arıqlamağı seçənlərə demək istəyirəm ki, birincisi, bu, cinayətdir, ikincisi, ölümdür. Bunu ağıllı insan etməz. Həmin dərmanlar psixostimulyator olduğundan yuxu pozulur, iştaha kəsilir, insan daim hərəkətdə olmaq istəyir. Amma təsiri getdikdən sonra insanda tükənmə, yorğunluq, süstlük yaranır. Bundan əlavə, mütəmadi istifadə zamanı beyin uzun müddət oyanıq qaldığı üçün psixoz baş verir. Bu zaman xəstədə aqressiya, hallüsinasiya meydana çıxır.

Rəşadət Nabatov bildirir ki, qadınlar bu metoddan daha çox istifadə edir və onun aludəçisinə çevrilirlər. Həmin qadınlardan biri başına gələnləri sosial şəbəkələrdə ictimailəşdirərək yazıb ki, bu dərmanlara aludə olandan sonra rəfiqəmin əl-ayaqlarını qurd basdı, çürüməyə başladı. Görəndə tanımadım. Ağlıma gəlməzdi ki, mən də belə olaram.

Rəşadət Nabatovun sözlərinə görə, 90-cı illərin əvvəllərində həkimlik praktikasında belə bir halla rastlaşıb: – 48 yaşlı qadının arıqlama dərmanlarına ümidi puça çıxdığından bizə üz tutmuşdu. Diaqnoz üçün öncə seçim etdik. Baş verənlər depressiyadır, yoxsa stress? Çünki kədərli olduğumuz hər anımız depressiya deyil. Müalicə üsulu müəyyənləşdirildi, psixiatr və psixoterapevt tərəfindən təyinatlar verildi. Bundan sonra xəstə reabilitasiyadan keçirildi. Nəticə tam sağalma ilə başa çatdı.

Artıq çəki təkcə istənilən paltarı geyinə bilməmək və ya kiminsə xoşuna gəlməmək kimi başa düşülsə də, əslində, bu, bir sıra xəstəliklərə, məsələn, diabetə tutulmaq riski deməkdir. Arıqlamaq üçün nəzərdə tutulan dərmanlar vitamin-mineral defisiti yaradır, qidalardan aldığımız vitaminlər bağırsaqlarımızda mənimsənilir. Nəticədə, bağırsaqda funksiya pozğunluğu vitamin və mineralların mənimsənilmədən orqanizmdən xaric olmasına gətirib çıxarır. Bu da saç tökülməsi, aqressiya, bir sıra qadın xəstəliklərinin yaranması ilə nəticələnir. Bundan başqa, bağırsaq divarında da zədələnmələr baş verir. Belə aludəçiliyin artması olduqca təhlükəli haldır və bunun qarşısı yalnız dövlətin deyil, bütün xalqın, ictimaiyyətin, toplumun, ailənin birgə səyi ilə alına bilər.

Bəs sağlam yolla arıqlamaq necə olmalıdır, necə edək ki, həm arıqlayaq, həm də sağlam olaq? Arıqlamaq üçün bir çox üsullar var, məsələn: müxtəlif dietalar, yağlı və zülallı yeməklərin azaldılması və sair. Sağlam şəkildə arıqlamaq istəyənlər əvvəlcə həyəcanı kənarlaşdırmalı, çox güclü arıqladıcı vasitələrdən qaçmalıdırlar, arıqlamaq yavaş-yavaş, səbirlə və ən əsası bu işdən həzz alınaraq edilməlidir. Bütün bunlarla bərabər, fiziki aktivliyi də artırmaq lazımdır. Arıqlamaq istəyən insanlar əvvəlcə buna mənəvi cəhətdən hazır olmalıdırlar.

Mütəxəssislər qeyd edirlər ki, oturaq həyat tərzindən yaranan artıq çəkinin əsasında genetik amillə yanaşı, sözsüz ki, sosial həyat, yaşam tərzi, ətraf mühit dayanır. 30 il əvvəl muxtar respublika ərzaqla ancaq idxal hesabına az-çox təmin olunurdu. Heç vaxt görmədiyimiz, şama oxşar yağlardan istifadə olunurdu evlərdə. Ümidimiz geni dəyişdirilərək istehsalı çoxaldılan ərzaqlara qalmışdı. Yaşamaq üçün bu qidaları qəbul etmək məcburiyyətində idik. Bütün bunlar isə, təbii ki, artıq çəki almağa təkan verirdi. Lakin illərdir ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda ərzaq təhlükəsizliyi sahəsində mühüm dövlət tədbirləri həyata keçirilir. Naxçıvanda kənd təsərrüfatının mühüm sahələri üzrə Dövlət proqramlarının qəbul olunması, bazarlarımızda yerli məhsulların üstünlük təşkil etməsi, sağlam qidaların əhaliyə satılması sağlam həyata, uzunömürlülüyə açılan yoldur. Bütün bunlardan istifadə edib sağlam həyat tərzi yaşamaqla insanlar bədən çəkilərini müəyyən kiloda saxlamalıdırlar ki, gələcəkdə arıqlamaq üçün heç nəyə ehtiyac qalmasın.

Bəli, o dövrlə müqayisədə bu gün muxtar respublikada hər bir sahədə sağlam həyat tərzi hökm sürür. Geni dəyişdirilmiş məhsulların satışına illərdir ki, qadağa qoyulub. Xəstəlik yuvası olan çayxanalar sökülüb. Əvəzində yeni, müasir tələblər səviyyəsində insanlara xidmət edən, dövlət qurumlarının fəaliyyətini rahatlaşdıran inzibati binalar, məktəblər, kənd və xidmət mərkəzləri tikilib, insanların istifadəsinə verilib. Dövlət tərəfindən vətəndaşlara yerlərdə öz təsərrüfatlarını qurmaları üçün dəstək göstərilir, onlara texnika, lazım olan dərman vasitələri verilir. Yaradılan şərait də insanları torpağa möhkəm tellərlə bağlayıb. Artıq bir çox gənc ailə təsərrüfatı sahibidir. Bununla da onlar həm də ikiqat qazanc əldə edirlər: həm sağlamlıqlarında, həm də dolanışıqlarında. Bir vaxt çayxanalarda, bazarlarda vaxtlarını keçirən uşaq, yeniyetmə və gənclərlə müqayisədə bu gün həmin kateqoriyadan olan əhali qrupu muxtar respublikada sağlam həyat tərzi keçirməklə yüksək səviyyədə təhsil alır, ixtisaslı kadrlar kimi yetişir, idmanla məşğul olur, beynəlxalq idman yarışlarında iştirak edir, bütün sahələrdəki uğurları ilə Naxçıvanın adını ucaldırlar. Təbii ki, idman, sadəcə, yarışlarda iştirak demək deyil, idman həm də sağlam ruh, sağlam bədən, sağlam düşüncə deməkdir. Muxtar respublikada qadınların idmana cəlbi istiqamətində də mühüm işlər görülüb, müxtəlif idman federasiyaları üzrə qızlardan ibarət klublar yaradılıb, onların idman obyektlərindən istifadəsi təmin olunub.

Ümumdünya Səhiyyə Təşkilatı sağlamlığın tərifini belə verir: “Sağlamlıq fiziki, əqli və sosial rifahın bütöv bir şəkildə mövcud olması, xəstəliklərin və bələnin insan bədənindən uzaq olmasıdır”. İnsan sağlamlığı, həmçinin yaşam şəraiti və resursların mövcudluq dərəcəsindən asılı olaraq dəyişir, bunlara yaşamaq üçün yer, müvafiq təhsil, ərzaq təminatı, maddi gəlir, sülh və əmin-amanlıq, sosial ədalət, bərabərlik və səmərəli ətraf mühit daxildir. Bütün bunlar isə muxtar diyarımızda mövcuddur. Naxçıvanın hər bir guşəsində park və xiyabanların salınması əhalinin asudə vaxtının səmərəli təşkilində mühüm rol oynayır. Hamı bilir ki, bütün digər insanlar kimi, artıq çəkidən qurtulmaq istəyənlər də daim açıq havada gəzməlidirlər. Onlar üçün oksigen çox əhəmiyyətlidir. Yəqin, 90-cı illərin Naxçıvanının təbiət mənzərələrini də xatırlayanlar az olmaz. Ümumiyyətlə, sovet dövründən az yaşıllaşdırılan diyarımız 90-cı illərin ağır blokadasına məruz qalanda olub-qalan yaşıllıqlar da insanların ölüm-qalım mücadiləsinin qurbanı oldu. Nəinki yol kənarlarında, meşələrdə, hətta həyətlərimizdə belə, ata-babalarımızın əkdikləri ağaclar çarəsizlikdən kəsilib sobalarda insanların “xilaskarına” çevrildilər. Bu gün isə Naxçıvan varlığının heç bir dönəmində



bu qədər yaşıllığa sahib olmamışdır. Ötən illər salınan bağlar, yaşıllıqlar, əkilən ağaclar bu gün muxtar respublikanın 20 faizdən artıq yaşıllıq sahəsi, bol oksigenidir. Yerli, keyfiyyətli meyvələr isə ixrac olunan məhsullar sırasındadır.

Bu gün muxtar respublikamızda hər yaş qrupundan olan əhali, eləcə də qadınlar üçün asudə vaxtın səmərəli keçirilməsinə hərtərəfli şərait yaradılıb. İdman və bədən tərbiyəsinin kütləviliyinin təmini, eyni zamanda cəmiyyətdə sağlam nəslin formalaşmasına səbəb olur.

Muxtar diyarımızda zərərli vərdişlərdən imtina və sağlam həyat tərzinin təbliği məqsədilə “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!” devizi altında keçirilən tədbirlər mütəmadi xarakter daşıyır. Gənclərdə vətənpərvərlik ruhunun yüksəldilməsi, fiziki dözümlülüyün artırılması, rəqabətədavamlı və sağlam gəncliyin inkişafına xidmət edən “Marş irəli” adlı hərbi simulyasiyalı layihənin 4-cü mövsümünə Naxçıvan ev sahibliyi etdi. Ağbulaq İstirahət Mərkəzində idmançıların istirahətinin səmərəli keçirilməsi məqsədilə təşkil olunan ənənəvi “Yay məktəb”ləri bu il də davam etdirildi. Həmçinin muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin asudə vaxtlarının səmərəli təşkili məqsədilə yeni startap layihələrinə start verilib. Bütün bunlar onu göstərir ki, insan sağlamlığı dövlət siyasətinin əsasını təşkil edir. Zərərli vərdişlərlə mübarizədə dövlət dəstəyinə arxalanaraq vətəndaşlar da əllərindən gələni əsirgəməməli, xüsusən də ictimai qınaq mexanizminin daim işlək vəziyyətdə olması üçün ciddi səy göstərməlidir. İnsanların sağlamlığını və həyatını ciddi təhlükə altına alan, əxlaqi və mənəvi dəyərləri sarsıdan, insanlığa xələl gətirən, cəmiyyətin harmoniyasını pozan, sosial-iqtisadi tərəqqini ləngidən, bir sözlə, həyatı iflic edən zərərli vərdişlərə qarşı münasibətdə hər birimiz barışmaz mövqe tutmalı və qətiyyətli mübarizə aparmalıyıq.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# *“Elmi əsərlər”*in növbəti sayı işıq üzü görüb

*AMEA Naxçıvan Bölməsinin “Elmi əsərlər” jurnalının cari ilə olan üçüncü sayı nəşr olunub.*




İctimai və humanitar elmlər seriyasına aid olan yeni sayda AMEA Naxçıvan Bölməsi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Naxçıvan Dövlət Universiteti, eləcə də digər elm və təhsil müəssisələri əməkdaşlarının müxtəlif mövzulu məqalələri əksini tapıb.

Jurnalda “Naxçıvanda hərbi-siyasi vəziyyət (1918-1920-ci illər)”, “Müsəlman intibahı dövründə Naxçıvan bölgəsində inşa edilmiş bəzi memarlıq abidələri haqqında”, “Naxçıvanda müstəqillik illərində təhsil sahəsində gender məsələsi”, “Azərbaycan Respublikasında dövlət idarəçilik sisteminin modernləşməsinin aktual məsələləri”, “Naxçıvanda neolit mədəniyyətinin mənşəyi və formalaşması”, “Azərbaycanda dini inanclarla bağlı naxışların müxtəlif sənət sahələrində tətbiqi tarixindən”, “Naxçıvanda şəhər əhalisinin su təchizatı sistemində kəhrizlərin rolu”, “Naxçıvan dialektində sait səslərin variantları”, “Orta əsr kitablarının bədii tərtibatı”, “Nizami Gəncəvinin əsərlərinin süjeti əsasında yazılan pyeslər Naxçıvan səhnəsində”, “Naxçıvan xalçaları mədəniyyət abidəsi kimi”, “Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin olunmasının başlıca istiqamətləri” və digər elmi məqalələr dərc olunub.

Məlumat üçün qeyd edək ki, “Elmi əsərlər” jurnalının ildə dörd nömrəsi çap olunur. Jurnalın cari ilə olan sonuncu sayı isə təbiət və texniki elmlər sahəsində aparılan tədqiqatların nəticələrini əhatə edəcək.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

# Şuşa, biz qovuşduq

## Və ya Qələbə tablosunun xəyali eskizləri

***Millət vəkili, Azərbaycan Respublikasının Əməkdar rəssamı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə xanım Həmzəyevaya açıq məktub***

Hörmətli Ülviyyə xanım, müstəqil Azərbaycanın, başda Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev olmaqla, qalib ordumuzun, müzəffər xalqımızın Böyük Zəfər bayramının möhtəşəm ildönümünə hazırlaşdığı bir zamanda sizinlə həmsöhbət olmağımı, yəqin ki, təbii qəbul edərsiniz, çünki layiq olduğunuz bu yüksək titullardan çox-çox əvvəl mən sizi rəssam Ülviyyə kimi tanımışam... Onda ki hələ özünüz demişkən rənglər sizi, siz rəngləri təzə-təzə kəşf edirdiniz. Və illər keçdikcə Mehriban Sultanın “Ülviyyənin rənglər dünyası” yazısı bələdçim oldu, sizin abstrakt, avanqard üslubunuzun heyranı oldum, yaradıcılığınızı izlədim.

Sərgilərinizdə Naxçıvanımızın tanınmış şəxsiyyətlərinin portretlərinə baxdıqca hər dəfə bir dərin məna, yeni ideya tapıram; zamanın yetişdirib püxtələşdirdiyi simanın xarakter cizgiləri, ömür yolu, peşəsi, intellekti, arzuları əks olunur bu portretlərdə...

Qızım Aynurun toyuna hədiyyə olaraq işlədiyiniz tablo qarşısında saatlarla dayanıb tamaşa edərək məna çalarları axtarmaqdan yorulmuram...

Sizin layihənizlə ucaldılan, ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımı qurbanlarının faciəsini əks etdirən abidə elə bil haqq səsini göylərə ucaldan xeyirxah qüvvələrin sehrli pıçıltısını qulaqlarda əks-səda edir.

Şah əsəriniz hesab edirəm bu abidəni!



Şükürlər olsun yaradanın qüdrətinə! 44 günlük Vətən müharibəsində haqq, ədalət zəfər çaldı! Qəhrəman xalqımız, rəşadətli sərkərdə Ali Baş Komandan, Prezident cənab İlham Əliyev və dünya hərb tarixində yeni səhifələr açan yenilməz ordumuz birləşərək dəmir yumruğa döndü, erməni işğalçılarını məhv edərək torpaqlarımızı azad etdi. Qarabağımızı özümüzə qaytardı!

Möhtəşəm Zəfər Bayramının ildönümünə yaxınlaşdıran hər gün bizə o müdhiş sentyabrdan başlanan 44 günü anbaan yenidən yaşatdı. Müharibənin 1-ci, 2-ci... 10-cu... 18-20-ci günləri rəşadətli ordumuz, Vətəni canından çox sevən igid əsgərlərimiz düşməni məhv edərək geri oturtdu. Çoxlu sayda canlı qüvvə və hərbi texnikası göyə sovrulan qorxaq erməni ordusu geri qaçmağa üz tutdu. Canlı-canlı izlədiyimiz cəbhədən qələbə xəbərləri, Ali Baş Komandan cənab İlham Əliyevin hər gün televiziya vasitəsilə xalqa müraciət edib qürurla kənd və şəhərlərimizin işğaldan azad olunmasını elan etməsi hər bir azərbaycanlı ailəsinin sonsuz sevincinə səbəb oldu. Torpaqlarımızın bütövlüyü uğrunda gedən Vətən müharibəsində Naxçıvan oğullarının da misilsiz şücaət və qəhrəmanlıqları tarixə düşdü!

“Torpaq, uğrunda ölən varsa, Vətəndir!” – deyiblər. “Şəhidin gəlir, qarşıla, Naxçıvan!” şüarı həyatımızın çağırışına çevrilmişdi o günlərdə. Başda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov olmaqla, Naxçıvan Hava Limanında hər dəfə böyük bir izdiham şəhid tabutlarını qarşılayıb dəfn olunacaqları kəndə yola salırdı... Şəhid tabutunu qaldıran kişilərin beli bükülmürdü, alınları açıq idi. Başlarını dik tutaraq bir çiyinlərində tabut – ucalardan uca bir şəhidlik zirvəsi boyda dağ, o biri çiyinləri ilə döyüşə gedən əsgər inadı ilə şəstlə, sıra ilə addımlayırdılar!

Yeganə övladını şəhid verən ana da, şəhid ərinin tabutuna girən gənc qadın da, iki övladı şəhid olan ata-ana da “Vətən sağ olsun!” – dedi. Amalı, qayəsi namus, qeyrət, vətənpərvərlik olan naxçıvanlı üçün Vətənin uzağı-yaxını, böyüyü-kiçiyi olmaz!

Vətən Azərbaycandır! Qarabağ Azərbaycandır!

Xəyalımda elə bil dünəndir… Şuşanın işğaldan azad edilməsi uğrunda gedən döyüşlər! Qəhrəman əsgərlərimizin dişi ilə, dırnağı ilə, əli-ayağı ilə, başlıcası isə Vətən sevgisi ilə, alışıb yanan ürəyi ilə dağlara dırmaşaraq erməni işğalçılarına divan tutması! Ali Baş Komandan cənab İlham Əliyevin ***“Şuşa işğaldan azad edildi! Şuşa bizimdir!”*** deməsi ilə bizim mənzildə tavan silkələndi! Haray qopdu! Hamımız bir-birimizi qucaqlayıb sevincdən ağladıq! Küçələrdə Azərbaycan bayrağı ilə şütüyən maşınların fitindən göy üzü tutulurdu. Budur naxçıvanlının üzünü görmədiyi, uğrunda canını verdiyi Vətənin bir parçasına olan məhəbbəti! Böyük Vətən sevgisi, vətənpərvərlik, Azərbaycançılıq ehtirası!

Ülviyyə xanım! Vaxtilə “Mənim Vətənimdə sülh olarsa” müsabiqəsinin qalibi kimi müsahibə zamanı Mehriban Sultanın “Qələbə tablosunu necə təsvir edirsiniz?” sualına belə cavab vermişdiniz: “Qələbə mövzusunda işləmək hər bir sənət adamının, eləcə də rəssamların ən müqəddəs arzusudur, onu çəkəcəyimiz gün isə uzaqda deyil”. Uzaqgörən başəri ideyanın zamanı olmur! Düz iyirmi il bundan əvvəlki qələbə arzunuz – gözünüz aydın, gözümüz aydın – reallaşdı! Düşmənlərə gözdağı olan qələbəmiz mübarək! İndi meydan sizindir, rəssam xanım! Vətənimin zəngin təbiətindən doğan rənglərlə elə bir tablo yaradıb dünyanın daş divarından asın ki, müasir texnologiyalardan, kompüter montajlarından xali rənglər dünyası sizin fırçanızla dil açıb danışsın, dostlar sevinib qürurlansın, fəxr etsin, düşmənlərin qamaşan gözləri tutulsun...

Sizinlə həmsöhbət olub qələbə sevincini paylaşmağıma səbəb 30 ildən sonra Şuşada keçirilən Vaqif poeziya günlərindən qayıdandan sonra “Şərq qapısı” qəzetində dərc olunan səfər təəssüratlarınız oldu. Məmnuniyyətlə Şuşa ziyarətçisini canlı-canlı ziyarət edərdim!

Və beləcə, şirin duyğularla yaşadığım günlərin birində qızım Mehriban xanım işdən gələndə çantasından bir qutu çıxarıb mənə uzatdı. Üstündə qələbəmizin atributu xarıbülbül şəkli olan, lentlə bağlanmış kiçik bir qutu! Adətən, belə qutularda qiymətli zinət əşyaları olar. Müəmmalı həyəcan və sevinclə qutunu açdım.

Qırmızı butalı parçadan tikilmiş kiçicik bir kisə! Üstündə xarıbülbül təsviri olduğu üçünmü, ya nədənsə bu parça ani olaraq mənə Qarabağ xanımlarının qədim geyiminin parçasını xatırlatdı...

– Ana, – qızım dedi: – Rəssam Ülviyyə xanım sənə hədiyyə göndərib. Şuşadan torpaq gətirib sənə! Bir ovuc qumlutəhər qara torpaq və kiçik çarpanaqlı daş parçası! Bu, münbit, qara, aran torpağı deyildi, dağ torpağı idi, başıdumanlı Şuşa dağlarının torpağı! Qəribə sövq-təbii ilə mənə elə gəldi ki, torpaq nəmdir, axı şəhid qanı ilə suvarılmışdı...

Əlimə alıb dərin nəfəslə iylədim. Qupquru torpaqdan, vallah, yenə qan iyi hiss etdim. Və mənə elə gəldi ki, o daş parçası da qədim insan məskəni olan Qarabağımızda ulu babalarımızın od əldə etdiyi çaxmaq daşından qopub düşüb! Bəlkə də, Şuşa uğrunda gedən həlledici döyüşlər zamanı çətinliklə qayalara dırmaşan qəhrəman əsgərlərimizin çəkməsi altından sürüşüb qopub bu daş...

Cıdır düzündə çövlan eləyən Qarabağ atlarının dırnağından qaçan daşa da bənzəri var onun!



“Şuşa qalası” rəssam: Həbib Allahverdiyev

Uyarı, dəyəri nə olur-olsun! Ülviyyə xanım, siz mənə “Tamahım düşüb dada bilmədiyim” bir qəfil tikəni bağışladınız: “Əziz Şuşa, sən azadsan!”, “Əziz Şuşa, biz qayıtdıq!”, “Əziz Şuşa, biz gəlmişik!” şüarlarına mənim də xitabım əlavə olundu: “Şuşa, biz qovuşduq!”.

Qovuşdurana alqış!

Şuşada Vaqif poeziya günləri möhtəşəm tarixi dönüş idi.

Öz Vətənində ulu öndər Heydər Əliyevin Sərəncamı və xüsusi səyi ilə görkəmli şair və ictimai xadim Molla Pənah Vaqifin məqbərəsi ucaldılandan sonra hər il Vaqif poeziya günləri keçirilərdi. Erməni faşizminin işğalına məruz qaldığı 30 il ərzində qürbətdə Vətən həsrəti ilə çırpınan Vaqifin ruhu ona məhrəm olan durnalara üz tutmuşdu:

*Bir zaman havada qanad saxlayın,*
*Sözüm vardır mənim sizə, durnalar!*
*Qatarlanıb nə diyardan gəlirsiz?*
*Bir xəbər versəniz bizə, durnalar!*

Naxçıvan diyarından “uçan durnalar” – rəssam Ülviyyə Həmzəyeva, şair-publisist Asim Yadigar və Qafar Qəribin sinələri şair Vaqifə çatdırılası şad müjdələrlə doludur, yəqin... Ancaq mən, Ülviyyə xanım, daha çox sizdən Qarabağ xanının eşikağası, siyasi xadim, ağlı, cəsarəti, hazırcavablığı ilə Qacar kimi qaniçən istilaçı qarşısında məğrur dayanıb dövlətçilik, Azərbaycançılıq ideyası nümayiş etdirən vətənpərvər lirik şair Vaqifin rəsmini gözləyirəm, necə deyərlər, uman yerdən küsərlər.

Niyə uzağa gedək?! 44 günlük Vətən müharibəsi günlərində Prezidentimiz Ali Baş Komandan cənab İlham Əliyevin dünyanın aparıcı informasiya orqanlarına verdiyi müsahibələri, çox vaxt qərəzli suallar yağdıran bəzi əcnəbi jurnalistlər qarşısında göstərdiyi təmkin və siyasi müdrikliyi yada salanda dövlət başçımızı Vaqifin xələfi sanıram. Qan tökməkdən doymayan cəllad Qacar Vaqifi asdırmağa hazırlaşarkən gecə öz adamları tərəfindən öldürülən zaman necə ki, dostu nurani Vidadiyə öz hisslərini ifadə etmişdi:

*Ey Vidadi, gərdişi-dövrani-kəcrəftara bax!*
*Ruzigarə qıl tamaşa, karə bax, kirdarə bax!*

Eləcə də, haqqın-ədalətin zəfər çaldığı 44 günlük Vətən müharibəsinin xalqımızın böyük qələbəsi ilə başa çatması, erməni faşizminin darmadağın edilərək kapitulyasiya aktını imzalaması sevincini qardaş Türkiyə xalqı ilə bölüşməyimiz, Zəfər paradında Ali Baş Komandan cənab İlham Əliyevin qalib ölkənin Prezidenti kimi Türkiyə Prezidenti Rəcəb Təyyib Ərdoğanla bölüşməsi şair-diplomat Vaqifin dostu Vidadi ilə dərdləşməsi səhnəsini xatırladır.

Gözlərim qarşısında Səməd Vurğunun “Vaqif” dramı canlanır: Gürcü qızı Tamara azadlıq mübarizəsinə qalxan Qaçaq Eldarın dəstəsinə qoşulub ondan kömək istəyir… Demək olar ki, torpaqlarımızın bütövlüyü və işğaldan azad edilməsi uğrunda apardığımız haqq savaşı müasir hərb tarixinə qızıl hərflərlə yazılmaqla Cənubi Qafqazda sülhün, əmin-amanlığın qarantına çevrildi.

Postmüharibə dövrünü yaşayan qəhrəman xalqım böyük vüsətlə erməni vandalizminin vəhşiliklərinə düçar olmuş Qarabağda – Şuşada işğaldan azad edilmiş bütün kənd və şəhərlərimizdə abadlıq və yenidənqurma işləri aparır.

İstər ön cəbhədə, istərsə də arxa cəbhədə cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi başda Ali Məclisin Sədri cənab Vasif Talıbov olmaqla, naxçıvanlıların əməyi təqdirəlayiqdir, unudulmazdır. Dövlətçilik, Azərbaycançılıq, torpaqlarımızın bütövlüyü, müstəqilliyimizin bərpası uğrunda mübarizənin liderlik missiyasını həyata keçirən naxçıvanlılarla fəxr edirəm! Mərdlik, namus-qeyrət, milli təəssübkeşlik, kişilik mücəssəməsi naxçıvanlılardır!

Ülviyyə xanım, çox təsirləndiyim faktlardan biri 27 sentyabr – Anım Günü şəhid general Polad Həşimovun anası Səmayə xanım və Xudayar Yusifzadənin anası Rəda xanımın naxçıvanlı şəhid analarının ziyarətinə gəlməsidir. Bəli! Naxçıvan tarixən qadın anaya möhtəşəm abidə ucaldan diyardır. Möminə xatın diyarı böyük şəxsiyyətlər yetirən, böyüdüb ərsəyə gətirdiyini şəhid verən anaları ilə qürurludur... Şəhid general Polad Həşimovun dağdan ağır anasının şəhid əsgər İlkin Muradlının anasını ziyarətə gəlməyinə dəyər, Səmayə xanım! O əsgər ki ölümü gözə alıb, özünü odun-alovun içinə atıb general komandirinin neytral zonaya düşən papağını götürüb düşmən əlinə keçməyə qoymamışdı... Papaq millətin namus, qeyrət, şərəf, ucalıq rəmzidir, onu düşmən tapdağında, işğal altında qoymaq olmazdı...

Ülviyyə xanım, dediklərim “Qələbə” tablosunun qəlbimdən keçən xəyali eskizləridir. Sizin, fırçanızın, rənglərin dili ilə daha çox sözlər deyəcəyinizə əminəm!



“Şuşaya qayıdış” rəssam: Həbibə Allahverdiyeva

***P.S.*** Hər il sentyabr ayı girəndə 65 il əvvəl olduğu kimi, burnuma bənövşəyi rəngli mürəkkəbin ətri gəlir. Atam cibindən çıxarıb həvəslə qaşıyıb yonduğu mürəkkəb həbini qaynamış suyu soyudaraq mürəkkəb hazırlayar, anam ona bir-iki damcı limon duzu şirəsi qatardı ki, çürüməsin... Ətrinə bax bunun! Dəftər-kitabımıza da, əllərimizə də, hətta ağ məktəbli önlüyümüzə də dəyərdi bu mürəkkəbdən...

Ötən il adamlar sentyabr ayını başqa libasda gördülər. “Qanlı-qadalı sentyabr”, “Qan iyi gələn sentyabr”, “Sentyabr ayında göydən qızılı payız yarpaqları tökülmək əvəzinə göz yaşları töküldü”, “Şəhidlər ayı” kimi ritorik ifadələr eşidilirdi. Qınamıram xalqımı. Yaşadıq müharibə ilə açılan sentyabr səhərlərini. Nə xoş ki bu səhərlər anbaan, günbəgün bizi Vətən müharibəsinin Qələbəsinə gətirib çıxardı. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi haqqın, ədalətin zəfər çalması ilə – Qələbəmizlə tarixə düşdü. 2021-ci il sentyabr ayının 27-si Anım Günü kimi yadda qaldı. Ölkənin hər yerində Anım Günü şəhidlər yad edildi, onların ruhu qarşısında məğrur başlar əyildi, şəhid məzarları Vətən torpaqlarının bitirdiyi gül-çiçəklərə qərq oldu! Həmin gün paytaxt Bakının küçə və prospektləri ön cərgədə Ali Baş Komandan cənab İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyeva olmaqla, 3 minə yaxın şəhidin portretini götürmüş əhalinin – əsgər və zabit ordusunun anım yürüşü ilə coşdu!

Bir ölüb min doğulan xalqıq! Bu xalqın birliyi qarşısında heç bir düşmən tab gətirə bilməz. Sentyabr ayını isə böyük qələbəmizin zəfər açarı hesab edək! Sentyabr bilik bayramı ayıdır. Bu ayda o ətirli bənövşəyi rəngli mürəkkəbə 11 nömrəli peronu batırıb “Ana”, “Vətən” sözlərini yazmışıq. Bu mürəkkəblə qol çəkib imza etməyi öyrənmişik. Daş pero, diyircəkli qələmlə, avtoqələmlərlə, ən nəhayət, kompüterlə qazandığımız biliklərlə ən müasir texniki idarəetmələr ilə dünyaya milli varlığımızı sübut edib. Qələbəmizin də, ildönümünü bayram etdiyimiz o zəfərin də mənbəyi bənövşəyi rəngli ətirli mürəkkəb qoxulu sentyabrdan başlayan biliklərimizdir.

*Sentyabr “Bilik bayramı” ayıdır! Bu ay “Vətən sevgisi” adlı tarix dərsini öyrətdi bizə!*

**Nubar ABDULLAYEVA**

### İtmişdir

Naxçıvan şəhəri, İslam Səfərli küçəsi 8 ünvanda yaşayan Mustafayev Ədalət Adil oğlunun adına olan 3906 inventar nömrəli texniki pasport və MH-0004524 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, İ.Həmzəyev küçəsi 6 ünvanda yaşamış Ramazanov Avtandil Hüseyn oğlunun adına olan evin 13583 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Qarahəsənli kəndində yaşayan Hüseynov Əsgər Əli oğlunun adına verilmiş JN-17^A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kənd sakini Cəfərova Gülçöhrə Xəlil qızının adına olan JN-284^A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 925